# QASIRĞALAR İÇİNDƏ

Həyatımızı sözlə yaşayırıq. Söz bizim düşüncələrimizin, istəklərimizin, arzularımızın əks sədası olaraq bizi bir-birimizə bağlayır. Əgər söz olmasaydı, insanlar da ünsiyyətdən məhrum olar, dağılmış inci düzümü kimi hara gəldi səpələnərdi. Bədii əsərlər, ümumiyyətlə sənət əsərləri düşüncə məhsulu olaraq ya sözlə yaradılır, ya da söz vasitəsi ilə şərh olunur. Beləcə cəmiyyət öz varlığını sözlə qoruyaraq özünün həyatını təmin edir, bir sözlə, insanlığı qoruyur. İnsanlığın gələcəyinə doğru yolunun əbədiliyini təmin edir.

Şəddat Cəfərovun cəfakeşliklə Azərbaycan oxucusuna çatdırdığı "Müharibənin alovlu qasırğası içində" əsərinin qəhrəmanı Mirzəcan Məmmədovun tale yolunu izləməklə XXI əsrin azərbaycanlı əsgərinə qəhrəmanlığın varisliyini aşılamaq istəyi də elə Vətənə xidmət istəyindən yaranıb.

Qəhrəman sarsılmırsa, vahiməə qəhrəmanın iradəsi və inamı qarşısında diz çökürsə, demək, döyüşün də, vuruşun da taleyi həll olunur. Kim vahiməyə qalib gəlirsə, qələbə də onunkudur. Biz Mirzəcan Məmmədovu belə bir qəhrəmanlıq epoxasının əsas obrazı kimi əsərin növbəti səhifələrində də yenilməz olaraq görürük: "Döyüşçülərlə birlikdə Mirzəcan Məmmədovun sanitar taqımının daxil olduqları şəhər boş idi. Onlar meydanda dayandılar. Kisələrini götürüb maşınlardan yerə endilər. Onları müşayiət edən əsgərlə birlikdə sanitarlarıda teatr binasına apardılar, burada tamaşa oynanılmırdı. Binanın içərisi qaranlıq idi. Əl fənərlərini yandırdılar. Uşaqlar pəncərələrdən dikt parçalarını çıxartdılar. Günəş həm zalı, həm də pərədləri örtülmüş səhnəni işıqlandırdı. Əyinlərində maskalanmış plaş olan tamaşaçı-əsgərlər ayaqlarını sürüyüb yarpaqlar səpələnmiş küçədə yorğun halda irəliləyirdilər, onların önündə komandirləri gedirdi. Əsgərlər binanın qarşısına keçib zala daxil oldular. Kombat oturmağa icazə verdi. Aktyorlar cəld axrıncı dəqiqə üçün saxlanılmış kostyumlarının detallarını geyinib, pariklərini düzəltdilər.

Hər şey hazır idi. Başlamaq olardı. Lakin zaldakı sakitlik hamını təəccübləndirirdi. Artistlər pərdədəki deşikdən zala baxanda kiminin başını oturacağın söykənəcəyinə dayadığını, kiminin qarşıdakı stula söykəndiyini, kiminin yanındakı ilə baş-başa verdiyini, kiminin tüfəngini, kiminin avtomatını qucaqladığını, kiminində sadəcə başını sinəsinə əydiyini gördülər. Əsgərlər yatırdılar. Mirzəcan Məmmədov da öz sanitar taqımı ilə birgə mürgüləyirdi. Bəs nə etməli?". Sual nə qədər ritorik olsa da, hər halda mövcud vəziyyəti aydınlaşdırmaq üçün kifayət qədər təsirlidir. Biz yaxın Qarabağ müharibəmizdə də gördük ki, əsgərlərin ruhunu qorumaq çox vacibdir. Xüsusilə, döyüş vaxtı söz-sənət adamları, müğənnilər... cəbhə bölgələrinə səfər edərkən əsgərlərlə canlı təmasda olublar. Onlara sənət vasitəsilə təsir edir, mənəvi köməklərini əsirgəmirlər. Mirzəcan Məmmədovun müharibə həyatı ilə bağlı olaraq əsərdə də belə bir epizod təsvir olunur. Şübhəsiz belə məqamlarda artistlərin, şairlərin əzmkarlığı təhlükə zamanı özlərini cəsarətli aparmaları da bir örnəkdir. Hətta komandirlər təhlükə vaxtı əsgərlər üçün təşkil olunan konserti belə yarımçıq qoymur. Şübhəsiz bu zaman müdafiə işləri də diqqətdən qaçırılmır. Yenə də canlı bir səhnənin şahidi oluruq. Bu səhnədə əsgərlərin ruh etibarı ilə sənət adamlarına doğmalığı xüsusilə diqqəti cəlb edir. Həyat gtöstərir ki, belə məqamlar heç vaxt unudulmur. Görünür müəlliflər və Şəddad Cəfərov özü də əsgərlər arasında söz-sənət adamların, artistlərin... çıxışlarının nə dərəcədə təsirli olduğunu yaxşı bilir. Və bunu təsirli bir həyat hekayəsi kimi diqqətdə saxlayırlar.

Müharibə onsuz da ölüm maşınıdır. Bir tərəf həmişə haqsız, digər tərəf həmişə haqlıdır. Haqlı tərəf hətta fiziki tərəfdən gücsüz olsa belə, mənəvi cəhətdən daha üstündür. Hərbiçilərin sayca az olmağı da bəzən məsələni həll etmir. Çünki haqqlı olduğunu bilən əsgər yenilməzdir. Biz əsgərlər arasında ruh yüksəkliyini təmin edən həmin parçaya diqqət edək: "Kombat qətiyyətlə artistlərin tamaşanı saxlamaq təklifini rədd etdi. - Nə danışırsınız heç elə iş olar?! Alay komandiri döyüşlərdə fərqlənmiş əsgərləri üç saatlığa buraxıb. Onlar sizinlə görüşü səbirsizliklə gözləyirdilər, bütün yolboyu artistlərlə görüşəcəkləri barədə danışırdılar. Konsertdən sonra biz yenədə ora kombat başı ilə sınıq şüşədən görünən yolu göstərib gedəcəyik, - dedi. Kombat pərdə qabağına çıxıb əllərini ağzına tutub bərkdən: - Oyanın! - əmrini verdi. Görünür, uzun illər boyu vərdiş halını almış ilk çağırış yenədə özünü doğrultdu. Əgər hətta sən lap on dəqiqəlik gözünü yumursansa da və buna kimi ikiüç sutka yatmamısansa da, əmr öz təsirini göstərir. Əsgərlər və sanitarları ilə birlikdə Mirzəcan Məmmədov da başını qaldırdı: - Başlayın, - deyə kombat artistlərdən xahiş etdi. Və artistlər konsertə başladılar. Onların konsertinə tamaşaçılar elə minnətdarlıqla baxıb qulaq asırdılar ki... Əsgərlər uşaq kimi gülür, məzəli zarafatlara cavab olaraq əl çalır və qışqırırdılar: - "Əhsən! Afərin!"və ya "Sağ olun!". Pərdə bir dəqiqəlik bağlanır və yenidən açılıb konsert davam edirdi. Artistlər alqışlar altında baş əyirdilər. Kombat əsgərlərə göstərdikləri xidmət, verdikləri zövq üçün artistlərə təşəkkürünü bildirdi və döyüşçülərə durub düzlənmək əmrini vermək istəyirdi ki, konsertin aparıcısı ondan əsgərləri hələ narahat etməməsini xahiş etdi. Pərdə azacıq qaldırıldı və səhnəyə bir bayan çıxıb vals ifa etməyə başladı. Musiqi səsi get-gedə azalır, azalırdı..." Belə səhnələrdən sonra əsgərlərin fiziki istirahəti də diqqətdən qaçırılmır. Elə ona görə də müəlliflərin təxəyüllə müşahidələri çox real təsir bağışlayır. İndi sanki təkcə müəlliflər yox, elə oxucular da əsgərlər arasındadır: "Qoy əsgərlər bir azca yatsınlar. Hamı ilə birgə leytenant Mirzəcan Məmmədov və onun bütün sanitar taqımıda yuxuladı. Sanitar taqımın komandiri digər bir müharibə epizodunuda böyük hərarətlə xatırlayır. Bax, bunuda dinləyin". Bu hadisələr harada, necə baş verir? bunun üçün müəlliflər qəhrəman Mirzəcan Məmmədovun döyüş yolunu addım-addım izləyirlər.

Əsas odur ki, həyatını hər an Vətən üçün qurban verməyə hazır olan əsgərin mənəvi mühitini göstərə biləsən. onun birbaşa ölüm təhdidləri altında necə yaşadığını, necə mübarizə apardığını, necə savaşdığını gələcək nəsillərə çatdıra biləsən. Maraqlıdır ki, döyüşçülər üçün yumorlu səhnələr xüsusilə təsiredicidir. Onların düşüncələri az müddətə olsa da, sülh dövürlərinə gedir. Ölüm meydanlarından uzaqlaşır. Və bu zaman əsil həyatın müharibə yox, dincliklə yaşamaq olduğunu anlayırlar.

Şəddad Cəfərovun çox böyük sevgi ilə Azərbaycan oxucusuna çatdırmaq istədiyi qəhrəmanın tale yolu da elə bu düşüncələrdən keçir. O, yaxşı bilir ki, bircə mərmi qırığı, ya bir güllə onun həyatına son verə bilər. Ancaq iş burasındadır ki, o bu həqiqəti bildiyi halda həyatı üçün heç bir qorxu hissi keçirmir. Çünki onun həyatı heç də bir parça Vətən torpağından üstün deyil. Vətəni canından əziz bilən əsgər üçün döyüş heç vaxt qorxulu olmur. Ancaq əsgəri hazırlamaq, onun ruhunun yenilməzliyini təmin etmək də təkcə komandirlərin işi deyil. Bu həm də arxa cəbhənin ordu ilə birliyindən asılıdır.

Qarabağ müharibəsi bu sahədə də sözün həqiqi mənasında Vətən müharibələri tarixinin ən yaxşı davamı oldu. Həyat göstərdi ki, xalq ordu ilə birləşəndə dövlət də ikiqat güc kəsb edir. Düşmənə həddini göstərmək baxımından bu çox dəyərlidir.

Şəddad Cəfərovun əsərinin qəhrəmanı Mirzəcan Məmmədov da böyük ordunun bir üzvü kimi o zaman Böyük Vətən adlanan ölkənin sərhədlərindən düşmənin qovulması naminə öz gücünü əsirgəmirdi.

Şəddat Cəfərov oxucuya daha cəzbedici bir epizod da təqdim edir: "Bu əhvalat ön xətdən üç kilometr aralıda baş vermişdi. Yayın qərbə enən günəş şüaları yüzlərlə cəbhəçi kimi leytenant Məmmədovun komandiri olduğu sanitar taqımının əsgərlərini də qoynuna alan zəmini əhatə edən qovaq ağaclarının başı üstünə düşürdü. Ağacların kölgəsində əlüstü düzəldilmiş hündür bir yer görünür. Burada ordunun səyyar mahnı və rəqs ansamblı konsert verməli idi. Əvvəlcə skripkaçı çaldı. O, ustadcasına ətrafı qaraçı melodiyaları ilə doldurdu, sonra fraklı müğənni geniş səsiylə "Gecə" ("Noçenika") mahnısını oxudu. Döyüşçülər Şoloxovun "Oyanmış torpaq" («Podnətaə üelina») əsərindən Şukar babanın monoloqunu söyləyən artist, Şukar baba anadan olandan aşpaz qadının onun yay girən kimi general olacağını söylədiyini elə yumorla ifa edirdi ki, əsgərlər onu böyük hərarətlə, gülüşlə alqışladılar". Biz döyüşən əsgərlərin əhatəsindəymiş kimi onların əhvalları, ovqatı ilə qovuşuruq. Bir anlığa ölüm mələyi onların gülüşlərindən, sevinclərindən qorxub uzaq buludların arxasına çəkilir. Belə mühitdə əsgərlərin bir-biri ilə doğmalığı həyatın ən şirin anlarını birgə yaşamaları şübhəsiz onların inamlarına, mənəvi mühitlərinə də təsirsiz ötüşmür. Və biz özümüzlə həmin hadisələrin arasında olmaqdan, əsgərləri müşahidə etməkdən məmnunluq duyuruq: "Sonra sarışın saçları çiyinlərinə axıb tökülən ağ paltarlı cəbhə mahnı ansamblının tanınmış solisti səhnəyə çıxıb, dinləyicilər üzərinə dalğalanan məşhur "Çayka" mahnısını oxudu... Bu aktrisanı görən Mirzəcan Məmmədovun yadına Amerika filmi "Böyük vals" düşdü. Orada da bax belə bir ağ paltarlı gözəl meşədə, ancaq Vena meşəsində, öz müqayisə olunmaz səsi ilə mahnı oxuyurdu. O, dəfələrlə bu filmə baxmışdı. Sonra müğənni çiyninə mavi yaylıq atıb polkun müşayiəti ilə o illər çox, lap çox sevilən bir mahnını ifa etdi:

Birdən lap yaxınlığa əvvəl bir, sonra digər düşmən mərmisi düşdü. Komanda eşidildi: - Hamı sığınacaqlara... Məmmədov öz sanitarları ilə istehkama endilər. Burada qırmızı guşə yaradılmışdı. Yaxınlıqda partlayan mərmi döyüşçülərin başı üzərində istehkam örtüyünü şübhəli şəkildə silkələyən zaman döyüşçülər bir-birinə sığındılar. Az sonra top atəşi qəfildən necə başlamışdısa, eləcə də bitdi. Yenə komanda eşidildi. - Çıx, düzlən! Və konsert yenidən davam etdi.

Hündür, boy-buxunlu artist Nikolay Mayorovun şeirlərini oxumağa başladı:

Konsert bitən kimi əsgərlər yenə də ağır döyüşə atılıb hücuma keçdilər..." Burada ayrı-ayrı şeir parçaları, bədii əsərlərin xatırlanması, maraqlı filmlərin yaddaşa gətirilməsi... bütün bunların hamısı əsgər həyatının Vətənin həyatından təcrid olunmadığı, Vətən həyatından bir parça olduğunu bizə diktə edir. Bəlkə səhəri günü dəhşətli döyüşdə əsgərlərin qələbəsinin əsası elə həmin duyğulu anlarda qoyulmuşdu. Əsgərlər böyük ruh yüksəkliyi ilə növbəti şəhəri düşmən işğalından azad etmək üçün hücuma keçirlər. Şəddat Cəfərov Azərbaycan oxucusuna öz qəhrəmanının həyatından yeni səhifəni elə bu ovqatla da çatdırır: "Döyüşçülər şəhəri azad etdilər. Mərmilər evləri titrədir, od saçaraq özündən sonra divara çoxlu miqdarda çatlar qoyub dəlik açırdı. Malası tökülən kərpiclər tünd-qırmızı rəngə çalır və sanki qanı axan canlıya bənzəyirdi, evlərin içini deşən dəlik isə yaralara oxşayırdı". Buradakı obrazlar, bənzətmələr əsl müharibə nəsrinin ən yaxşı elementlərini göstərir. Hətta həmin epizodlarda biz faşistlərin əvəzinə sanki erməni vandallarının bizim torpağımızda nələr törətdiklərini və bizim torpağımızı qəsb etmək üçün bütün imkanlardan istifadə etdiklərini də gözlərimizin önünə gətiririk. Mirzəcan Məmmədovun timsalında sanki Şəddad Cəfərov öz oxucusuna bu gün Qarabağda vuruşan Azərbaycan əsgərinin gücünü, iradəsini göstərir: "Meydana çıxan kəsişən binaların çardağında faşistlər pulemyot yuvası qurmuşdular. Bizim döyüşçülər yerə əyilərək evin girəcəkləri yanından qaçıb keçmək istəyəndə onlar güllə selinə tuş gəldilər. Bu güllələr daşları, divarların malalarını didir, əsgərlərin tərdən yaş olmuş gimnastyorkalarını parçalayıb bədənlərini yandırırdı. Havadan kəskin barıt qoxusu gəlirdi, bu tüstü mərtəbə-mərtəbə qalxır və gur günəş işığını qaranlığa çevirirdi". Bu döyüşün ən canlı səhnələrindən biridir.

Şəddat Cəfərov bu hekayətin oxucuya canlı olaraq təqdimi üçün bütün imkanlarından istifadə edir. Hətta əsərdə canlılıq o qədər təmin olunur ki, müharibəni görməyən hər hansı bir şəxs bu səhnələrin canlı şahidinə çevrilir. Zaman keçdikcə həqiqətlər dumana bürünmür, daha çox üzə çıxır. Həqiqətlərin zaman dumanlarının altında qalmaması üçün yaradılan əsərlərin gücü əvəzsizdir. Bu mənada biz bu tipli əsərlərin azərbaycan oxucusuna çatdırılmasında əvəzsiz zəhmətlər sərf edən Şəddat Cəfərov kimi yazarlarımıza minnətdar olmalıyıq.

*(Davamı var)*

***Ceyhun ZALLI***